ISSN 2663 - 4619 / Print

DOI: 10.36719/AEM/2007-2019/47/24-27
Leyla Sadıx qızı Məmmədova
Azərbaycan Dillər Universiteti
leyla.sadixova.92@mail.ru

İNGİLİS DİLİNDƏ "TO PUT" FEİLİ İLƏ DÜZƏLƏN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN STRUKTUR-SEMANTİK TƏHLİLİ

Açar sözlər: *vurğu, frazeoloji birləşmələr, semantik, sintaktik, komponent*
Key words: *stress, phraseological units, semantic, syntactic, component*
Ключевые слова: *ударение, фразеологические сочетания, семантик, синтаксис, компонент*

Müasir dövrümüzdə öz aktuallığını qoruyub saxlayan söz və söz birləşmələrinə cəmiyyətdə baş verən dəyişikliklər öz təsirini göstərmişdir. Dilimizin lüğət tərkibinin zənginləşməsində sözlər kimi, bütövlükdə eyni bir məna ifadə edən sabit birləşmələrin də rolu böyükdür. Dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadələrin məcmusuna frazeologiya deyilir.

Bir dilçilik termini kimi ilk dəfə "frazeologiya" termini Şarl Balli tərəfindən dilçilik elminə gətirilmişdir. "Frazeologiya" sözünün etimologiyasına nəzər yetirsək, phrases-ifadə, logos-nəzəriyyə, elm sözlərinin birləşməsindən yarandığını görərik.

"Frazeologiya" termini 1940-cı illərdə yaranmışdır və dilin frazeoloji birləşmələrini öyrənir. Frazeologizmlərin dilin inkişafında oynadığı rol xüsusi səciyyə daşıyır. İngilis dilinin frazeologiyası çox zəngin və özünəməxsusdur. Dilin tarixi inkişafı nəticəsində və müxtəlif səbəblər əsasında yaranmış frazeoloji sistem sayəsində danışıq prosesində fikri aydın şəkildə başqasına ötürmək mümkündür.

Frazeologiya bir dilçilik sahəsi kimi iki hissəyə ayrılır: 1.ümumi frazeologiya 2.xüsusi frazeologiya.

Tədqiqata cəlb etmək istədiyimiz "to put" feili ilə yaranmış söz birləşmələrində heç də həmişə "to put" sözü özünün ilkin mənasında işlədilmir. "To put" komponentli frazeoloji birləşmələri araşdırmaqda məqalənin əsas məqsədi onların struktur və semantik xüsusiyyətlərini, məzmun və forma cəhətdən zənginliyini, işlənmə imkanlarını müəyyən etməklə əlaqədardır.

Lüğət tərkibinin formalaşmasında ən mühüm rol oynayan vahidlərdən biri də sözdür. Onlar dil sisteminin əsas vahidləri sayılır. Sözü bir sıra alimlər müxtəlif cür təsvir etmişlər. Məsələn, Aristotel sözü "nitqin ən əhəmiyyətli və ən kiçik hissəsi", Plato "əşyaları ifadə etməyin əsas vasitəsi" adlandırmışlar.

Söz birləşmələri müxtəlif alimlər tərəfindən müxtəlif dövrlərdə tədqiq edilmişdir. Nitqimizdə yalnız tək-tək sözlər deyil, iki və daha artıq sözlərin birləşmələrindən də istifadə edilir. Söz birləşmələri asılı struktura sahibdir. Bir sıra dilçi alimlər, o cümlədən də V.V.Vinoqradov söz birləşmələrinin asılı struktura malik olduğu fikrini irəli sürmüşdür.

Söz birləşmələrini geniş mənada şərh edən alimlərdən biri də L.Blumfild idi. [14, s.143] O, XX əsrin 30-cu illərində yazdığı əsərində söz birləşmələrini ətraflı şəkildə şərh edir və onların 2 qrupa ayrılmasını iddia edirdi. Bunlar endosentrik və ekzosentrik qrupa ayrılan söz birləşmələri idi. Tərkib hissələrindən biri və ya hər ikisi başqa strukturlarda işlənərək birləşmə əmələ gətirən söz birləşmələrinə endosentrik söz birləşmələri deyilir. Tərkib hissələrinin heç biri bütöv birləşməni əvəz edə bilməyən söz birləşmələrinə isə ekzosentrik söz birləşmələri deyilir.

Smirnitski də eyni zamanda dilin lüğət tərkibinin sözlərdən və söz ekvivalentlərindən ibarət olması fikrini irəli sürmüş və söz birləşmələrini "söz ekvivalentləri" adlandırmışdır.

Bir sıra dilçilər söz birləşmələrini "phrase", "word group", "word cluster" termini kimi ifadə etmişlər.

İlk dəfə olaraq fransız alimi L.Tenyer [18, s.12] tərəfindən söz birləşməsinin "leksik və qrammatik valentlik" olaraq iki əsas dilçilik faktoruna bölünməsi göstərilmişdir. Əvvəllər "valentlik" yalnız feillərin birləşməsi imkanları kimi təsvir edilirdi, lakin illər keçdikcə bu terminin mənası genişlənərək bütün morfoloji vahidləri əhatə etməyə başladı.

İngilis dilində sərbəst söz birləşmələri sözlərin qrammatik faktorları ilə əlaqədardır. Sərbəst və sabit söz birləşmələri bir-biri ilə qarışdırılmamalıdır. "Sabit söz birləşmələri"nin hər hansı elementini digər elementlə məhdud dairədə əvəz etmək mümkündür və ya qeyri-mümkündür. Sabit söz birləşmələrinin elementləri hər zaman sabitlik və eyniyyət təşkil edir.

Söz birləşmələri tərəflərinin leksik-semantik xüsusiyyətləri baxımından təsnifinə görə iki növə ayrılır.

1.Sərbəst söz birləşmələri

2.Sabit söz birləşmələri

ISSN 2663 - 4619 / Print

Sintaksisin əsas tədqiq obyektlərindən biri olan sərbəst birləşmələr tam müstəqil mənaya malikdir və ilkin leksik mənasını və müstəqilliyini qoruyub saxlayır.

The door of the room-otağın qapısı

The engine of the car- maşının mühərriki

The flowers of the garden- bağın gülləri

Sərbəst söz birləşmələrində tərəflər arasında nominative məna və sintaktik əlaqələr həm mənaca, həm də qrammatik cəhətdən bir-biri ilə sıx əlaqədə olur.

Sabit söz birləşmələri də sərbəst birləşmələr kimi cümlənin bir üzvü olur. Qeyri-sərbəst birləşmələr kimi də adlandırılan sabit söz birləşmələri sərbəst birləşmə modelləri əsasında qurulur. Lakin onların komponentləri məna müstəqilliyinə malik deyil. Həmçinin, onlar həqiqi mənada işlənmir və tərəflərindən biri zəif, asılı, məcazi məna daşıdığı üçün komponentləri ayrılmazdır. Sabit söz birləşmələrində hissələrindən biri həm qrammatik, həm də leksik məna, digər komponenti isə qrammatik məna daşıyır.

Frazeoloji vahidlərin ən çoxu feil komponentlidir. Dilçilik ədəbiyyatlarında həmin feilləri semantik cəhətdən qruplara bölürlər. Bir çox frazeoloji birləşmələrdə əsas məna yükü birinci komponentə düşür. Məqalədə bu frazeoloji birləşmələri birinci komponentinə görə, yəni "to put" feilinə görə təhlil etməyə çalışmışıq.

Feili frazeoloji birləşmələr feil+isim, feil+sözönü+isim və s. konstruksiyalı ola bilir. "She was just jealous of your relationship with Pippa and couldn't resist putting a spoke in your wheel"-O sizin Pippa ilə olan münasibətinizi qısqanır ancaq sizin münasibətinizə mane olmağa müqavimət göstərə bilmir. Məsələn bu nümunədə, **"to put a spoke in smb̓s wheel"** frazeoloji birləşməsi "kiminsə işinə pəl vurmaq, mane olmaq" mənasında işlənir. Digər bir nümunədə isə, "İf the management try to cut our pay, we can put a spoke in their wheel by going on strike"-*Əgər menecer bizim maaşımızı kəssə biz etiraz edərək onların işinə mane olacağıq*. Burada tərəflərdən biri və ya hər ikisi həqiqi mənada işlənmir və tərəflərindən biri zəif, asılı, məcazi məna daşıdığı üçün komponentləri ayrılmazdır və ümumi məna ifadə edir.

To put your hands together-(alqışlamaq, əl çalmaq)-konstruksiya baxımından feil+şəxs əvəzliyi+isim zərflik tipli frazeoloji birləşmədir. "Ladies and gentlemen, please put your hands together for our next comedian this evening".-*Xanımlar və cənablar, zəhmət olmasa bu axşam bizim növbəti komediaçını alqışlayın.* "Everyone started putting their hands together to signal that they wanted the concert to begin".

To put two and two together-(anlaşılması çox sadə və çox asan olan) -quruluş baxımdan bu frazeoloji birləşmə feil+say+bağlayıcı+say+zərflik tipindəndir. Bir neçə nümunə ilə bu frazeoloji birləşmənin bildirdiyi mənanı ifadə edə bilərik. Məsələn, "I think he put two and two together and realized that John had been stealing from him this whole time"-*Düşünürəm ki, o çox asanlıqla başa düşdü ki, Con bu müddət ərzində ondan oğurluq edibmiş.* "Putting two and two together, it is not hard to guess who will be chosen for the lead role in the play". Baş rol üçün kim seçiləcəyi çox aydındır.(Bu iki üstəgəl iki kimi bir şeydir).

Put smb.in (or into) the picture - (kimisə məlumatlandırmaq, xəbər etmək, kimisə nəyəsə həvəsləndirmək) - konstruksiya baxımdan feil+isim+söz önü+isim quruluşdadır. "Just make sure you put the boss in the picture about the status of the project"- *Sən əmin ol ki, müdiri proyekt haqqında ətraflı məlumatlandıra biləcəksən.*

To put off-to postpone (təxirə salmaq) - feil+söz önü tipli konstruksiyalıdır. "They didn't have enough information, so they have put off the decision until the next meeting"-Onların kifayət qədər vaxtları olmadığı üçün iclası növbəti həftəyədək təxirə saldılar. "put off" frazeoloji birləşməsinin digər bir mənası isə "to be a disincentive"(istəksiz olmaq)dır. "The price put me off".

Put away - (place an object in its proper location)-frazeoloji birləşməsi feil+söz önü konstruksiyalıdır. "Here are your clean clothes, please put them away".

Put back - feil+söz önü - (return an object to the location where it came from) –"After you are done using the dictionary, put it back".

Put up with sth. - Konstruksiya cəhətdən bu frazeoloji birləşmə feil+söz önü+isim tipindədir. "They wonṫ put up with her being late so frequently" - Onlar onun bu qədər tez-tez gecikməyinə dözə bilmirlər. Məna cəhətdən araşdırdıqda isə bu birləşmə "nə iləsə barışa bilməmək, razılaşmamaq"mənası verir. "I cannot put up with your constant whining any longer! We can put up with Johṅs living here until he finds a place of his own".

Put smth.on ice - (hansısa bir işi dondurmaq, təxirə salmaq) - "I know that journalist has been persistent in getting a comment from us for his story, but we'll just have to put him on ice until the trial is over".- Bilirəm ki, jurnalist bu hekayə üçün təkidlə bizdən rəy almağa çalışır, ancaq biz məhkəmə qurtaranadək

ISSN 2663 - 4619 / Print

fikrimizi bildirməyi dayandıracağıq. "The whole deal was put on ice when the stock market fell sharply". - Anbarda qəfil işlər azalanda bütün işlər dayandırıldı.

Put smb.in the shade - Quruluş baxımdan bu frazeoloji birləşmə feil+əvəzlik+söz önü+isim tipindəndir. "I was really proud of my presentation, but Jonathaṅs put everyone elsės in the shade".-Mən həqiqətən də öz təqdimatımla fəxr etsəm də, Conatan hamını kölgədə qoydu.

"The fantastic performance by the Ugandan runner put his opponents in the shade"-Uganda yarışçısının möhtəşəm çıxışı onun bütün rəqiblərini kölgədə qoydu. "The new player really puts the rest of the team in the shade"-Yeni oyunçu həqiqətən də bütün komandanı kölgədə qoydu.

Bu frazeoloji birləşmədə tərəflərdən heç biri ayrı-ayrılıqda ümumi məna bildirmir, lakin sabit söz birləşməsi kimi "kimisə kölgədə qoymaq" mənasını verir.

Put onės shoulder to the wheel - Struktur etibarilə bu birləşmə feil+söz önü+isim+söz önü+isim konstruksiyalıdır. "I know that the new deadline is tight, but if everyone puts their shoulders to the wheel, I know we can get it done in time"- Mən bilirəm ki, vaxt sona çatır ancaq hər kəs işdən möhkəm yapışsa biz vaxtında işi başa çatdıra bilərik.

İlk baxışdan göstərilmiş nümunədəki frazeoloji birləşməni təhlil etsək, təxminən "çiyinlərini təkərə söykə" kimi başa düşülür, ancaq burada əsas məna birbaşa təkərdən getmir, məcazi anlamda "işindən möhkəm yapışmaq" anlamını ifadə edir. "Work hard, make a strenuous effort, as in Wėll have to put our shoulder to the wheel to get this job done"-Əgər biz işimizdən möhkəm yapışsaq, çox işləsək, çox cəhd etsək biz bu işi əldə edə bilərik.

Put a price on smḃs head -"I m sorry, but we can not travel with your brother any longer. The sheriff put a price on his head, and it is too dangerous for the rest of us!"-Üzr istəyirəm, komissar sizin qardaşınızın başına mükafat qoyduğu üçün biz sizin qardaşınızla səyahət edə bilmərik, bu bizim üçün çox təhlükəlidir. Konstruksiya baxımından bu birləşmə feil+isim+isim+söz önü+əvəzlik+isim tiplidir.Bu frazeoloji birləşmə "mükafatlandırmaq, başına mükafat, pul qoymaq" mənasındadır. Bu komponentlər hər ikisi öz leksik mənasında işlənməyib, məcazi-metaforik işlənib.

Put pen to paper - "My first advice to anyone struggling with their emotions is to keep a small journal and put pen to paper as often as possible"-Mənim məsləhətim odur ki, öz hissləri ilə barışa bilməyən insanlar balaca jurnal götürüb hisslərini qələmə alsınlar. ; "Writers from across the country have been putting pen to paper for the annual nonfiction festival"-Bütün ölkədəki yazıçılar illik ədəbi müsabiqə üçün qələmə almağa başladılar. Bu cümlələrdə frazeoloji birləşmə "qələmə almaq" mənasında işlənmişdir. "The football star has refused to put pen to paper until his pay exceed that of his last contract".-Futbol ulduzu yeni kontraktın ödənişi əvvəlkindən artıq olmayınca onu imzalamaqdan imtina etdi. Bu cümlədə frazeoloji birləşmə "to sign a contract- kontrakt imzalamaq, müqavilə imzalamaq" mənasında işlənir.

Put up with –anlayış göstərmək, narahat situasiyanı qəbul etmək, uyğunlaşmaq mənası verir. "I caṅt put up with all the noise in the dormitory-I need a quieter place to study"-Mən yataqxananın səs-küylü olmasına uyğunlaşa bilmirəm, mənim oxumaq üçün rahat yerə ehtiyacım var.

Put smb.up -"Doṅt worry about finding a hotel- I can put you up for a few days".- Otel axtarmaq üçün əziyyət çəkmə, mən bir neçə günlük sənlə evimi paylaşa bilərəm. Bu frazeoloji birləşmə "kiməsə yaşamaq üçün yer(ev) vermək" mənası verir. Digər bir mənası isə "kimisə nəyəsə həvəsləndirmək, inandırmaq" anlamındadır. "My son is normally very well-behaved, but his friends put him up to playing a prank on the teacher". - Mənim oğlum normalda çox tərbiyəlidir, ancaq onun dostları onu müəllimlə zarafat etməyə həvəsləndirirlər.

Put down-frazeoloji birləşməsinin mənası həm yazmaq, həm də kimisə danlamaq, alçaltmaq mənasında işlənir. "I m making a shopping list. I already put down bread, cheese and butter- what else do we need to get"- Bu cümlədə frazeoloji birləşmə "yazmaq" mənasında işlənir. "Every time I try to add sth.to the conversation, my brother puts me down by saying my opinions are stupid"-Mən nə zaman söhbətə qoşulmaq istəsəm qardaşım ideyalarımın axmaqcasına olduğu üçün məni alçaldır. Digər bir mənası isə "xəstəlikdən əziyyət çəkən heyvanı əzablardan xilas etmək üçün öldürmək" anlamını verir. Məsələn, "When our cat got cancer, we decided to put her down" .

Put out - frazeoloji birləşməs "söndürmək, çap etmək, narahatçılıq etmək" mənalarına malikdir. Məsələn, "The firefighters quickly put out the fire in the apartment building"-Bu cümlədə "put out" frazeoloji birləşməsi yanğının söndürülməsi mənasına malikdir. "The organisation puts out a monthly newsletter". - Bu nümunədə isə şirkətin aylıq qəzetlər çap etməsi barədə məlumat verilir. "Is it OK if I arrive early? I don't want to put you out in any way".-Bu cümlədə isə "put out" frazeoloji birləşməsi "narahat etmək" mənasında işlədilir.

ISSN 2663 - 4619 / Print

Put onė̇s faith in smb.-“ İf the two of you put your heads together, İ̇m confident yoȕll figure out a workable solution”. - Mən əminəm ki, siz ikiniz bir araya gəlsəniz siz bu məsələnin öhdəsindən birlikdə gələcəksiniz. Bu nümunədə frazeoloji birləşmənin mənası heç də “başların bir yerə yığılması” deyil, birbaşa burada məna başdan deyil, məhz fikirlərin, düşüncələrin birləşərək mövcud məsələni həll etməsindən ibarətdir.

İngilis dilində “to put” komponentli frazeoloji birləşmələrin struktur-semantik cəhətdən təhlilini apardıqda bu feil ilə yaranmış frazeoloji birləşmələrin komponentlərində motivləşmə ilə yanaşı məcazlaşmanın da olduğu aydın olur. Bu cür söz birləşmələrinin çox zaman komponentlərinin öz leksik mənasından uzaqlaşaraq başqa semantik məna ifadə etdiyinin şahidi oluruq.

Sonda gəldiyimiz nəticə ondan ibarətdir ki, söz birləşmələrinin lüğəvi mənalarını tam anlamaq üçün onları kontekst daxilində işlətmək lazımdır və daha sonra həmin frazeoloji birləşmələrin semantik təhlilini aparmaq olar.

Ədəbiyyat:

1. Hacıyeva Ə. H., Hacıyeva A. K. İngiliscə-azərbaycanca frazeoloji lüğət. Bakı, Nurlan. 2006. 368 s.
2. Fərhadov F. M. Frazeoloji birləşmələrin yaranma yollari (Azərbaycan, ingilis, rus dillərinin materialları əsasında), Avtoreferat, Bakı 2009. 22 s.
3. Həsənov H. Azərbaycan dilinin frazeologiyası. Bakı, ADU-nun nəşriyyatı. 1979. 65 s.
4. Vəliyeva N., (2008) Müxtəlif sistemli dillərdə feili birləşmələrin tipoloji təhlili, 861 s.
5. Амосова Н.Н., (1956) Этимологические основы словарного состава современного английского языка, Москва, 316 с.
6. Амосова Н.Н., (1963) Основы английской фразеологии, ЛГУ, 326 с.
7. Бурлакова В.В., (1972) Структура словосочетание в английском языке, Москва, 256 с.
8. Виноградов В.В., (1977) Основные типы лексических значений слова, Москва, 327с.
9. Иртенева Н.Ф., (1972) К вопросу о классификации словосочетании, ИЯВШ, №3.
10. Кунин А.В., (1986) Курс фразеология современного английского языка, Москва, 336 с.
11. Смирницкий А.И., (1956) Лексикология английского языка, Москва, 259 с.
12. Смирницкий А.И., (1962) Слова и идиом, Москва, 198 с.
13. Строева Т.В., (1987) Семантика языковых единиц в разных уровней, Ростов, 215 с.
14. Altenberg B., (2000) On the Phraseology of Spoken English, The Evidence of recurrent Word-Combinations. Cambridge, 308 p.
15. Bloomfield L., (1935) Language, New York, 601 p.
16. Odgen C.K., Richard I.A., (1970) The Meaning of Meaning, New York. İPƏK YOLU, No.3, 2017 Azərbaycan Universiteti 178
17. Rayevskaya N., (1957) English Lexicology, K., 207 p.
18. Schlauch M., (1965) The English Language in Modern Times, W., 215 p.
19. Tenyer M., (2001) The Theory of Valency, Oxford, 218 p.

Structural-semantic analysis of the phraseological units with the verb "to put" in English

Summary

The main purpose of this article is to define semantic and structural peculiarities, productivity of form and content, possibility of using of phraseological units with "to put" component. The article deals with the history of research on phraseology and word combination, too.

Структурно-семантический анализ фразеологических соединений с компонентом "to put"

Резюме

Главной целью статьи является определение структурно-семантических свойств, разнообразие форм и содержаний, и возможности использования фразеологических соединений с компонентом “to put”. В статье приводиться также обзор истории исследования фразеологии и словосочетаний.

Rəyçi: dos. M.M.Təhməzova